BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 *Humanitar elmlər seriyası* 2008

# ÇUXUR-SƏD BƏYLƏRBƏYİLİYİNİN HÜDUDLARI VƏ OSMANLI İŞĞALI DÖVRÜNDƏ İNZİBATİ BÖLGÜSÜ HAQQINDA

**V.B.BAXIŞOV**
***Azərbaycan Respublikasının Milli Məclisi***

Bildiyimiz kimi, Səfəvi dövləti inzibati cəhətdən dörd valilik və 13 bəylərbəyilikdən ibarət idi (13, s.44). Tarixi Azərbaycan torpaqları dörd – Azərbaycan, Şirvan, Gəncə–Qarabağ və Çuxur–Səd bəylərbəyilikləri tərkibində birləşdirilmişdi. Bu inzibati bölgüyə əsasən Qərbi Azərbaycan torpaqları mərkəzi Rəvan şəhəri olan Çuxur – Səd bəylərbəyiliyi tərkibinə qatılmışdı. Tarixi qaynaqlarda Səd – Çuxuru (11, s.31) (Osmanlı qaynaqlarında), «Saxata post» (9, s.50) (Səd çuxuru) və ya «Erkrin Saxatu» [8, s.140] («Səd ölkəsi») (ermənidilli qaynaqlarda) formasında da yad edilən bu ərazi adını əmir Sədin adından götürmüşdü. Uzun sürən Səfəvi–Osmanlı savaşlarının davam etdiyi bir şəraitdə iki dövlət arasında sərhəd xəttinin vaxtaşırı dəyişməsinin ənənəvi hal alması hər iki dövlətə tabe əyalətlərin, o cümlədən də bilavasitə Səfəvi–Osmanlı cəbhəsinin mərkəzində yerləşən Çuxur–Səd bəylərbəyiliyinin sabit olmayan hüdudlarının müəyyənləşdirilməsini xeyli çətinləşdirir. Səfəvi və Osmanlı dövlətləri arasında baş vermiş ilk irimiqyaslı hərbi toqquşmadan - Çaldıran döyüşündən (1514) keçən qırx bir il ərzində iki dövlət arasında sərhədlərin təsbit olunduğu hər hansı bir sülh sazişinin olmaması tərəflər arasında növbəti toqquşmaların baş verməsinə zəmin yaradırdı. 1514-cü il Çaldıran savaşı öncəsi Səfəvi – Osmanlı sınırı Kelkit çayı boyundakı Koylu/Koyluhisar ilə Suşehri arasından təqribən 38 dərəcəli şərq meridianı üzərindən keçirdi. Ərzincan ilə Dersim (Tunceli) və bütün Fəratın şərq hissəsi Səfəvilərə, Fəratın qərbində yerləşən Divrigi, Malatya, Gürün, Larəndə, Adıyaman, Antəp və Hələb isə Misir Məmlüklərinə aid idi (7, s.104). O.A.Əfəndiyev Səfəvi – Osmanlı sərhədinin bir zamanlar Ərzurumdan şərq istiqamətdə, Ərciş, Xunus və Pasin xətti üzrə keçdiyini bildirir (3, s.118).

Tarixi qaynaqların verdiyi məlumatlarla tanışlıq zamanı Çuxur–Səd bəylərbəyiliyinin Qərbi Azərbaycan torpaqları ilə yanaşı, Anadolunun şərq və Arazdan cənubda yerləşən bir sıra kifayət qədər geniş əraziləri də tərkibində birləşdirdiyi məlum olur. Lakin sonrakı illərdə vəziyyətin xeyli dərəcədə dəyişməsi müşahidə edilir. Hakimiyyəti dövründə Səfəvilərə platonik nifrəti ilə seçilən sələfinin (I Səlim Yavuzun 1512–1520 - V.B.) düşmənçilik siyasətini davam və inkişaf etdirən sultan I Süleyman Qanuni (1520–1566) 1520-ci ildən 1555-ci ilədək olan dövr ərzində şərqi Anadolunun böyük bir hissəsini Osmanlı hüduduna qatmağa və həmin qalibiyyətlərini Amasya barışı (1555) ilə hüquqi müstəvidə də qəbul etdirməyə nail olur ki, həmin saziş sonrakı Səfəvi - Osmanlı anlaşmalarında hüdudların müəyyənləşdirilməsi zamanı başlıca

hüquqi istinad hesab edilirdi. Osmanlı-Səfəvi diplomatiya tarixində yalnız bir – 1590-cı il İstanbul barışı Amasya anlaşmasından və əsasını bu anlaşma təşkil edən digər müqavilələrdən köklü surətdə fərqlənirdi. 1590-cı il İstanbul anlaşmasına əsasən iki dövlət arasında tamamilə fərqli sınır xətti müəyyənləşdirilmişdir. Qazi Əhməd 1590-cı il İstanbul barışına əsasən Osmanlı işğalları hüdudunun cənub-şərqdən Sərab yaxınlığındakı Ərəştənab kəndindən keçdiyi, buradan Təbrizədək olan ərazilərin rumlulara (osmanlılar nəzərdə tutulur - V.B), Türkmənkəndi və Miyanəyədək olan ərazilərin isə qızılbaşlara keçməsi haqda məlumat verir (3, s.118). A.A.Rəhmani «Azərbaycanın XVI-XVII əsrlərdə sərhədləri və inzibati bölgüsü» adlı məqaləsində, 1618-ci il barışına əsasən Səfəvi–Osmanlı sərhəd xəttinin 1555-ci il müqaviləsi əsasında müəyyənləşdirildiyini qeyd etməklə, sərhədin şimal–qərb və qərbdən Maku, Rəvan və Tiflis üzərindən keçdiyini bildirir (10, s.121). Əylisli Zəkəriyənin «Gündəliyində»ki qeydə əsasən, Səfəvi–Osmanlı sərhədinin Qars çayından keçdiyi aydın olur (14, s.16-17). Şah I Abbasın (1587-1629) hakimiyyəti dövründə bölgəyə səfər etmiş F.Kotov Səfəvi–Osmanlı sərhədinin Qars çayı üzərində yerləşən Malazgirt (çox güman ki, Maqazberd nəzərdə tutulur - V.B.) üzərindən keçdiyini və həmin şəhərin Rəvandan ikigünlük məsafədə yerləşdiyini qeyd edir (5, s. 57, 93). «Naima tarixinə» istinadən 1635-ci ildə Osmanlı qoşunlarının Rəvan üzərinə yürüşündən bəhs edən Qars tarixi müəllifi Səfəvi–Osmanlı sınırının Qars çayı üzərindən keçdiyini bildirir (6, s. 532). İsgəndər Münşi Qarsın Çuxur–Sədlə Ərzurum arasında yerləşdiyini bildirir. Bu vilayət Axısxa (Axalsix–Osmanlı inzibati bölgüsünə əsasən isə Çıldır – V.B) ilə sərhəddə yerləşirdi (13, s. 165). Bu arada fransız səyyahı C.Şardənin məlumatı diqqəti cəlb edir. Müəllif müharibə vəziyyətində başqa xanlarla yanaşı, Qars və Marağa xanlarının da öz hərbi qüvvələrini Çuxur–Səd bəylərbəyinin sərəncamına verməyə məcbur olmaları (2, s. 37-38) haqda məlumat verir ki, bu da bizə sözü keçən xanlıqların da Çuxur–Səd bəylərbəyinə tabe olmasını güman etməyə əsas verir. Əks təqdirdə Çuxur–Səd bəylərbəyinin Qars və Marağa xanlarını öz bayrağı altında birləşdirərək savaşa aparmaq səlahiyyəti olmazdı. O.A.Əfəndiyev Çuxur–Sədin Araz çayının hər iki sahilini əhatə edən vadilərə aid olduğunu güman etməklə, şimal-qərbdə yerləşən Şuragelin tez-tez Çuxur–Sədlə əlaqələndirildiyini qeyd edir. Müəllif Türkiyə Qarsı ilə sərhədin təxminən Arpaçayın axını üzrə keçdiyini və əvvəllər əldən-ələ keçən, indi isə Türkiyə ərazisində yerləşən Maqazbert şəhərinin Səfəvi – Osmanlı hüdudunda yerləşdiyini bildirməklə, əyalətin (Çuxur-Səd nəzərdə tutulur - V.B.) cənub və cənub-qərb istiqamətlərində Naxçıvan və Makunu, bəzən isə Bəyaziti də tərkibində birləşdirdiyini qeyd edir (3, s. 117-118). A.A.Rəhmani Çuxur–Səd bəylərbəyiliyinə tabe əyalətlər içərisində Arazın şimalında yerləşən Naxçıvanın, Naxçıvanın cənub-qərbində Araz çayının sağ sahilində və Ağrıdağın cənub-şərq ətəklərində yerləşən Makunun, onunla qonşuluqda yerləşən kiçik ərazi olan Poşak qalasının adlarını çəkir (10, s. 123). O, (A.A.Rəhmani - V.B.) anonim tarixçinin Bəyazit və Rəvanla Qars arasında yerləşən Maasbert (Maqazbert - V.B.) qalalarının, eləcə də dümbülü və şamlu tayfalarına məxsus ölkə olan Nurakeli də Çuxur–Səd ərazisinə aid etdiyini qeyd edir. P.T.Arutyunyan XVII–XVIII əsrlərdə Rəvan xanlığının bir şəhər və 15 mahal – dairədən ibarət olduğunu qeyd etməklə, Qafan, Mehri, Sisyan–Zəngəzur kimi şərq mahallarının gah Gəncə–Qarabağ bəy-

lərbəyiliyinə, gah Naxçıvan xanlığına, gah da Azərbaycan bəylərbəyiliyi tərkibinə daxil edildiyini bildirir (1, s. 87-88). Tarixi qaynaqlarla tanışlıq zamanı Qərbi Azərbaycan torpaqlarının bəylərbəyiliyin mərkəzi əyaləti hesab olunması heç bir şübhə doğurmamaqla, Dərəçiçək, Abaran, Şorəgöl, Qərni–Vedi, Sürməli, Kərbi, Ağrıdağın Qırxbulaq, həmçinin Qeqarkuni və Göyçə dəniz mahallarını özündə birləşdirdiyi aydın olur. İnzibati cəhətdən bəylərbəyiliyə tabe edilmiş digər ərazilər bir növ həmin mərkəz ətrafında birləşmişdi. Elə bəylərbəyiliyin mərkəzi olan Rəvan şəhəri də bu bölgədə yerləşirdi. O.A.Əfəndiyev tarixi qaynaqlarda tez-tez Rəvan və Naxçıvanın Çuxur–Sədlə eyniləşdirildiyini qeyd edir [3, s. 112]. Fikrimcə, bu onların bəylərbəyiliyin əhəmiyyətinə görə ən böyük şəhərləri və iqtisadi-siyasi mərkəzləri olmasından qaynaqlanırdı. XVII əsrdən etibarən əvvəllər Azərbaycan bəylərbəyiliyinə tabe olan Naxçıvan da bəylərbəyiliyin hüdudlarına daxil edildi. Hülakülər dövründə Naxçıvan, Əncan (burada mis mədəni olması ilə əlaqədar olaraq, məntəqə həmçinin Kar–xana da adlanırdı) Ordubad, Azad, Maku şəhərlərini özündə birləşdirməklə, «tümən» hesab olunan Naxçıvan (4, s. 51) Səfəvi dönəminə aid tarixi qaynaqlarda da «Tümən-i Naxçıvan» şəklində yad edilir (12, s. 260). «Naxçıvan tüməni» Naxçıvan, Şahbuz, Əlincə, Azadciran, Dərəy-i Alagöz və Sisacan əyalətlərini özündə birləşdirirdi.

Arazdan güneydə yerləşən Karacadağ, Təbriz, Şəhrizor, Luristan və Nihavəndlə yanaşı, Arazdan quzeydə yerləşən bütün Azərbaycan torpaqlarının osmanlıların tabeliyinə keçməsini rəsmiləşdirən 21 mart 1590-cı il tarixli İstanbul barışından sonra, Azərbaycan torpaqları altı (Rəvan, Gəncə, Şirvan, Ərəş, Şamaxı, Dərbənd əyalətləri) ərazi-inzibati vahidi tərkibində birləşdirilmişdi. Bu bölgüyə əsasən Qərbi Azərbaycan torpaqlarında əvvəllər Çuxur–Səd bəylərbəyiliyi tərkibinə daxil olan digər ərazilərlə birgə 27 nahiyədən ibarət Rəvan əyaləti təsis edilmişdi. Bu zaman 1579-cu ildə təsis edilmiş Qars vilayətinə bağlı Şuragel, Maqazbert və Ağca–Qala kimi Arpaçayı üzərindəki məntəqələr də Rəvan əyaləti tərkibinə qatıldı. Rəvan əyaləti aşağıdakı nahiyələrdən ibarət idi: 1.Rəvan, 2. Kərbi, 3.Qərni, 4. Vedi, 5. Aralık (İqdırın şərqi), 6.Talin, 7. Ərməvi (Sərdarabadın şərqi), 8. Ablık (Abnik?), 9. Abaran, 10. Şərabxana, 11. Ağca–qala (k), 12. Naxçıvan, 13. Məvaz-i Xatun, 14. Mülk-i Arslanlı, 15. Qarabağ (mərkəzi Şuşik), 16. Dərə–şam («Dədə- Qorqud oğuznamələri»ndə adı keçən yer), 17. Dərə–Şahnevaz, 18. Bazar–Çayı, 19. Şərur, 20. Zar, 21. Zəbil (?), 22. Əlincə, 23. Sisyan (əski Sisakan), 24. Ordubad, 25. Ərəb–Saran,(?) 26. Şorluk (t), 27. Dərə – Borluk (6, s. 530). Bölgüdən də göründüyü kimi, Rəvan əyalətinə tabe 27 nahiyədən 17-si Naxçıvan bölgəsinə aid olmaqla, üç – Naxçıvan - 1. Naxçıvan, 2. Məvaz–i Xatun, 3. Mülk–i Arslanlı, 4. Qarabağ (Naxçıvan Qarabağı), 5. Dərə–şam, 6. Dərə–Şahbuz, 7. Bazar–Çayı, **Şərur** – 1. Şərur, 2. Zar, 3. Zəbil, 4. Əlincə, 5. Sisyan (əski Sisakan), **Ordubad** – 1. Ordubad, 2. Culfa (54 məhəlləli və çox geniş bağ və bağçalı), 3. Azad–Ceyran (Azad–Ciran formasında da rast gəlinir – V.B.), 4. Şorlut, 5. Norgüt nahiyələrini birləşdirən Naxçıvan, Şərur və Ordubad qəzalarından ibarət idi (7, s. 375).

**QEYDLƏR**

1. Арутюнян П.Т.Освободительное движение армянского народа в первой четверти XVIII в. Москва: Изд-во АН СССР, 1954.
2. Cənab кovaler Şardənin Səfəvilərə və Şərqin digər yerlərinə səyahətləri (tərcümə və qeydlərin müəllifi Vaqif Aslandır, əlyazması hüququnda s.1-125.) c.VI, Paris: 1811.
3. Эфендиев О. А. Территория и границы азербайджанских государств в XV-XVI вв. сб. статей. Историческая география Азербайджана. Баку: 1987.
4. Хамдаллах Казвини. Нузхат Ал–Кулуб. (материалы по Азербайджану) перевод с английского З.М.Бунятова, перевод с персидского И.П.Петрушевского. Баку: Элм, 1983.
5. Хождение купца Федота Котова в Персию. Москва: Изд-во Восточной литературы, 1958.
6. Kırızıoğlu F. Kars Tarihi. c. I, İstanbul: 1953.
7. Kırızıoğlu F. Osmanlıların Kafкaz-Ellerini Fethi (1451-1590) Anкara: 1993.
8. Мамедов С.А. Азербайджан по источникам XV - первой половины XVIII вв. Баку: Изд-во Элм, 1993.
9. Папазян А.Д. Аграрные отношения в восточной Армении в XVI–XVII веках. Ереван: Изд-во АН Арм. ССР, 1972.
10. Рахмани А.А. Азербайджан – границы и административное деление в конце XVI – XVII вв. Сб. статей. Историческая география Азербайджана. Баку: 1987.
11. Selaniкi Mustafa Əfəndi. Tarix–i Selaniкi 1563–1600 (Azərbaycan və qonşu ölкələrin tarixinə dair iqtibaslar. Osmanlı türк dilindən çevirəni Bünyadov Z.M) Baкı: Elm, 1992.
12. Шараф хан Бидлиси. Шараф–наме (перевод, предисловие, примечания и приложения Е.И.Васильевой) Т II, Москва: Изд-во Наука, 1976.
13. Tadhkirat Al–Muluk. A manual of Safavid Administration (circa 1137/ 1725) Persian text in facsimile (B.M.or.9496) Translated and explained by V. Minorsky. London: 1943.
14. Закария Акулийский. Дневник, Ереван, Изд-во АрмФАН лит-ры, 1939.


## О ГРАНИЦАХ ЧУХУР–САДСКОГО БЕГЛЯРБЕКСТВА И ОБ АДМИНИСТРАТИВНОМ ДЕЛЕНИИ ПРИ ОСМАНЛИНСКОЙ АГРЕССИИ

**В.Б.БАХЫШОВ**

### РЕЗЮМЕ


Как известно, государство Сефевидов в административном отношении состояло из четырех вилайетов и 13 беглярбекств. Исторические азербайджанские земли были объединены в составе четырех – Азербайджанской, Ширванской, Гянджа–Карабахской и Чухур–Садской беглярбекств. По такому административному делению западные азербайджанские земли, с центром в городе Раван, были присоединены в состав Чухур–Садского беглярбекства. Благодаря историческим источникам получаем сведения о том, что в состав Чухур–Садского беглярбекства, наряду с западными азербайджанскими землями, были присоединены некоторые участки восточной Анатолии и ряд довольно широких территорий, расположенных южнее Аракса. После завоевания пункта османскими войсками на западных азербайджанских территориях, вместе с ранее входившими землями в состав Чухур-Садского беглярбекства, была создана Раванская провинция, состоявшаяся из 27 нахие.

## ABOUT THE BORDERS AND ADMINISTRATIVE DIVISION OF CHUKHUR–SAD BAYLARBAYI DURING OTTOMAN OCCUPATION

V.B.BAKHISHOV

### SUMMARY

As we know Safavi state was consisted of four governments and thirteen baylarbayis. Historical Azerbaijan's lands were brought together in four baylarbayliyi – as Azerbaijan, Shirvan,Ganja-Karabakh and Chukhur – Sad. According to this administrative division, Western Azerbaijan's lands were added to Chukhur – Sad baylarbayi which center was Ravan town. According to the historical resources, some large territories those were located in western of Anatolia and southern of Araz were a part of Chukhur – Sad baylarbayliyi.

During Ottoman occupation Ravan province was created in the same region. The province had 27 nahiyyas.